# CƏMİL CƏMİLBƏYLİ

**Bakı Dövlət Universiteti Filologiya fakültəsinin Filologiya (Azərbaycan dili və ədəbiyyatı) ixtisası üzrə III kurs, Fl-099 qrup tələbəsi.**

## ÖLÜMƏ AĞLAMA

Əlində şəklimi aparan qadın,
Yavaş sıx sinənə, sinənə yazıq.
Gözündə xəyalım, dilində adım,
Bu günə min lənət, dünənə yazıq.

Səsin çıxartmağa utanan qadın,
Ölməsəm, həyana qurban olardım.
Canının ağrısı, əzabı oldum,
Bir dəfə dərdinə dərman olmadım.

Əliylə saçını qoparan qadın,
Sən yolan saçları mən ağartmışam.
Atanın evində azıydı dərdin,
Sənin dərdlərini mən çoxaltmışam.

Mənim hər acıma qatlanan qadın,
Açılmaz kələfin ucuna döndüm.
Ömürlük sonuncu acın olmadım,
Sonuncu ömürlük acına döndüm.

Göz yaşı torpağı suvaran qadın,
Ölümə ağlama, ölümə lənət.
Xoşbəxt edəcəyəm demişdim səni,
Dilim yoxdu, deyəm, dilimə lənət.

## NƏSƏ

Nəsə istəyirəm Allahdan hər gün,
Nəsə diləyimdi, arzumdu nəsə.
Boğazdan keçməyən, dişim kəsməyən,
Ruhumu bəsləyən ruzimdi nəsə.

Nəsə çox yaxşıdı, nəsə pisdi, pis,
Ayıra bilmirəm, seçə bilmirəm.
Qalmışam nəyinsə əlində, Allah,
Yaman bərk bağlayıb, aça bilmirəm.

Nəsə ürəyimi hey sıxır yenə,
Nəsə sinəmdəcə ilişib qalıb.
Canım səksəkədə, can qorxur yenə,
İlantək qıvrılıb, qırışıb qalıb.

Açılmağı bir dərd, sıxmağı bir dərd,
Məni bu ilandan sən özün qoru.
Dünən rahat idim, yatmışdı gecə,
İlahi, deyəsən bu səhər durub.